# Gənclər Gününə həsr olunmuş tədbir keçirilib

Fevralın 2-də Azərbaycan Texniki Universitetində (AzTU) Gənclər Gününə həsr olunmuş tədbir keçirilib.

Toplantıda çıxış edənlər AzTU-da təhsil alan gəncləri bu əlamətdar gün münasibətilə təbrik edib, uğurlar arzulayıblar. AzTU-da bilikli, bacarıqlı mühəndis kadrların hazırlanması üçün hər cür şərait yaradılıb. Universitetin kollektivi ölkə Prezidentinin gənclərlə bağlı siyasətinin mərkəzində dayanan əsas ideyanın gəncləri layiqli vətəndaş, vətənpərvər insanlar kimi hazırlamaq olduğunu yaxşı bilir. Bu ideyanın dəqiq və müntəzəm həyata keçirilməsi öz bəhrəsini verməkdədir. AzTU hazırda Avropanın 60-dan çox ali məktəbi ilə sıx əməkdaşlıq edir ki, bu da universitetin Avropa təhsil sisteminə inteqrasiyasını reallaşdırmağa imkan yaradır.

Təhsildə və ictimai işlərdə fərqlənən tələbələrə universitetin diplom və fəxri fərmanları, pul mükafatları verilib.